**Article Arrival Date** **Article Published Date**

**05.05.2024** **20.06.2024**

# MƏCBURİ KÖÇKÜNLƏRİN TƏHSİL PROBLEMLƏRİNİN HƏLLİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

## THE ROLE OF THE GREAT LEADER HEYDAR ALIYEV IN SOLVING THE EDUCATIONAL PROBLEMS OF THE DISPLACED PERSONS

**Aynurə ƏLİYEVA**

Azərbaycan Dövlət Pedaqoji Universiteti

**Özet**

Ulu öndər Heydər Əliyev müdrik və cəsarətli siyasi xadim, ölkəsinin və xalqının güclü vətənpərvəri, lideridir. O, həyatını və bütün fəaliyyətini xalqına həsr edib. Ümummilli lider hakimiyyəti dövründə daim xalqının yanında olub və onun taleyüklü məsələlərinin həllini öz üzərinə götürüb.

Heydər Əliyevin genişmiqyaslı dövlət idarəçiliyində elm və təhsil siyasəti mühüm yer tutub. u sahənin inkişafına böyük qayğı və həssaslıqla yanaşıb. Onun təhsil siyasəti milli mənafelər üzərindən qurularaq cəmiyyətimizin davamlı və dayanaqlı inkişafına xidmət edib. Təsadüfi deyil ki, Ümummilli lider hakimiyyətdə olduğu illərdə ölkədə təhsil islahatları aparılmasının zəruriliyini qeyd etmiş, hər bir inkişafın elm və təhsildən asılı olduğunu xüsusi vurğulamışdır. Böyük dövlət xadiminin bu prinsipi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil edib. Onun təhsilə verdiyi qiymət fəaliyyəti boyunca hiss olunurdu.



**Açar sözlər:** lider, təhsil, elm, Heydər Əliyev, dövlət

**Summary**

The great leader Heydar Aliyev is a wise and courageous political figure, a strong patriot and leader of his country and people. He dedicated his life and all his activities to his people. During his rule, the national leader was always with his people and took upon himself the solution of their fateful issues.

In Heydar Aliyev's large-scale state administration, science and education policy took an important place. He treated the development of this field with great care and sensitivity. His education policy was based on national interests and served the sustainable development of our society. It is not a coincidence that during the years when the National leader was in power, he noted the need to carry out educational reforms in the country and emphasized that every development depends on science and education.

This principle of the great statesman formed the main principle of education policy in Azerbaijan. His appreciation for education was felt throughout his career.

**Keywords:** leader, education, science, Heydar Aliyev, state

## Giriş

Heydər Əliyevin genişmiqyaslı dövlət idarəçiliyində elm və təhsil siyasəti mühüm yer tutub. Bu sahənin inkişafına böyük qayğı və həssaslıqla yanaşıb. Onun təhsil siyasəti milli mənafelər üzərindən qurularaq cəmiyyətimizin davamlı və dayanaqlı inkişafına xidmət edib. Təsadüfi

ISSN
3023-5480

deyil ki, Ümummilli lider hakimiyyətdə olduğu illərdə ölkədə təhsil islahatları aparılmasının zəruriliyini qeyd etmiş, hər bir inkişafın elm və təhsildən asılı olduğunu xüsusi vurğulamışdır. O deyirdi: “Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir”. [5,6]

Böyük dövlət xadiminin bu prinsipi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil edib. Zamanında həyata keçirilən islahatlar proqramına nəzər saldıqda, fəaliyyətinin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Ümummilli lider Heydər Əliyevin təhsil strategiyasının fundamental bir konsepsiya olduğu aydın görünür. Onun təhsilə verdiyi qiymət fəaliyyəti boyunca hiss olunurdu. Hələ 1970-80-ci illərdə respublikamızda təhsilə göstərilən diqqət, ana dilinin inkişafına yönəlmiş siyasət, gənclərin müxtəlif sahələr üzrə SSRİ-nin ali təhsil müəssisələrində oxumağa göndərilməsi, ali məktəblərin sayının artırılması kimi uğurlu işlərin nəticələri sonrakı illərdə özünün əhəmiyyətini göstərdi. Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", 1973-cü ildə isə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul edildi. Bu qərarların icrasının nəticəsi olaraq, 1982-ci ildə ümumtəhsil məktəblərinin sayı 1969-cu illə müqayisədə iki dəfə çoxalmışdı. Həmin illər ərzində beş yeni ali təhsil müəssisəsi yaradıldı ki, bu da ali təhsil alanların sayını daha da artırdı.

1970-80-ci illər Azərbaycan təhsilinin uğurlu inkişaf mərhələsi idi. Bu illərdə fəaliyyət göstərən 78 orta ixtisas məktəbində hər il orta hesabla 70-80 min nəfər şagird təhsil alırdı. Bu dövrdə ali məktəblərin sayı 12-dən 17-yə çatdırılmışdı. Əgər Heydər Əliyev rəhbərliyə gələnədək, yəni 1969-cu ilin birinci yarısınadək respublikanın 12 ali məktəbində 105 fakültə, 450 kafedra, 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1981/1982-ci tədris ilində 17 ali məktəbdə 136 fakültə, 530 kafedra, 175 ixtisas üzrə kadrlar hazırlanırdı. Ulu öndər respublikanın milli kadr potensialının gücləndirilməsində əhəmiyyətli rol oynamışdır. O, yaxşı bilirdi ki, yüksək ixtisaslı mütəxəssislər yetişdirilməsi cəmiyyətin inkişafının əsasını təşkil edən mühüm amillərdən biridir. Ona görə də Heydər Əliyev genişmiqyaslı fəaliyyətində təhsilə xüsusi diqqət ayırmışdır.

Təhsil sahəsinin problemlərinə dərindən bələd olan Ümummilli lider cəmiyyətdə, şəxsiyyət formalaşdırılması işində bu sahənin rolunu yüksək qiymətləndirir, onu millətin gələcəyi adlandırır və deyirdi: “Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”. [1, 4]

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003-cü illər) də xüsusi diqqət yetirdiyi məsələlərdən biri elm və təhsil sahəsinin inkişafı idi. Baxmayaraq ki o, respublikamızın çox ağır vəziyyətində rəhbərliyə qayıtmışdı. Bu elə bir vaxt idi ki, ölkədə xaos, hərc-mərclik hökm sürürdü və xalq vətəndaş müharibəsi faciəsi ilə üz-üzə idi. Belə bir şəraitdə Heydər Əliyev xalqın çağırışını, respublikanın o vaxtkı rəhbərliyinin təkidli dəvətini qəbul edib, 1993-cü il iyunun 9-da Bakıya gəldi və müasir Azərbaycan dövlətinin varlığını qorudu. Həmin ilin 3 oktyabrında isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu o zamana təsadüf edirdi ki, respublikamızda bir milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir, tarixi torpaqlarından didərgin salınmışdı. İşğal nəticəsində qaçqın və məcburi köçkünə çevrilən insanların ilk illərdə üzləşdiyi sosial problemlərin çoxluğu, onların həlli istiqamətində lazımi addımların atılmaması, məktəb yaşlı uşaqların təhsildən uzaq düşmələri vəziyyəti daha da ağırlaşdırmışdı. Yalnız Ümummilli lider yenidən hakimiyyətə qayıtdıqdan sonra doğma yurdlarından didərgin salınmış bir milyon nəfərədək soydaşımız dövlət qayğısı ilə əhatə olundu, üzləşdikləri sosial problemlər, həmçinin təhsil məsələləri tədricən öz həllini tapmağa başladı.

ISSN 3023-5480

Qeyd edək ki, baş vermiş işğal nəticəsində digər sahələrdə olduğu kimi, təhsil sahəsinə də ciddi ziyan dəymiş, xüsusilə onun infrastrukturu zədələnmiş, o cümlədən coğrafiyasının daralmasına gətirib çıxarmışdır. Mütəxəssislərin araşdırmalarına və analitik yazılarına, həmçinin, mərkəzi, yerli İcra hakimiyyətləri və təhsil orqanlarının məlumatına əsasən deyə bilərik ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mindən çox təhsil obyekti amansızlıqla məhv edilmişdir. Belə ki, işğal nəticəsində Ağdam şəhərində mövcud olan Musiqi, Kənd təsərrüfatı, Kənd Təsərrüfatı Mexanikləşdirmə və Elektrikləşdirməsi texnikumları, 9 ümumtəhsil və internat orta məktəbi, iki Peşə məktəbi və s.; Şuşa şəhərində 23 ümumtəhsil məktəbi, 6 məktəbəqədər uşaq müəssisəsi, 7 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, Peşə-ixtisas məktəbi, Mədəni-maarif, Kənd təsərrüfatı, M.M.Nəvvab adına Musiqi texnikumları, 2 saylı Bakı Baza Tibb Texnikumunun filialı, həmçinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Ədəbiyyat İnstitutunun filialları və Realnı məktəb dağıdılmışdır; Qubadlı rayonunda işğaldan əvvəl 61 ümumi təhsil məktəbi, o cümlədən, 33 tam orta, 16 ümumi orta, 12 ibtidai məktəb fəaliyyət göstərirdi. Rayonda 6000-ə qədər şagirdin təhsili ilə 1317 nəfər pedaqoji işçi məşğul olurdu. Laçın rayonunda 102 ümumtəhsil məktəbi, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Xocalı, Xocavənd rayonlarının çoxsaylı təhsil müəssisələri də talan olunmuşdur. Bu dağıntılar, insanların öz yurd-yuvalarından didərgin düşmələri, təhsil sistemində istər-istəməz problemlərin yaranmasına gətirib çıxarmışdır. Yaranan bu çətin vəziyyətə görə bir çox şagird, tələbə və müəllim təhsildən uzaqlaşmağa məcbur olmuşdu. Belə ki, təhsil sahəsində çalışan qaçqın və məcburi köçkün əhalinin bir hissəsi işini dəyişmiş, bir hissəsi isə qazanc dalınca xarici ölkələrə getməyə məcbur olmuşdur. Bu da pedaqoji kadrların sayının azalmasına gətirib çıxarmışdır. Bunlara əsasən deyə bilərik ki, 90-cı illərdə Azərbaycan təhsili keçid dövrünü yaşayırdı. İqtisadi, siyasi və mənəvi həyatdakı problemlər onu böyük çətinliklər qarşısında qoymuşdu. Təhsilə kifayət qədər vəsait ayırmaq hələ mümkün deyildi. Məktəblərin maddi bazası zəifləmişdi. Yuxarıda da qeyd etdiyimiz kimi yüzlərlə təhsil müəssisəsi, o cümlədən 855 məktəbəqədər uşaq müəssisəsi, 693 ümumtəhsil məktəbi, 85 musiqi məktəbi, 4 texnikum və 1 ali məktəb [3, 29] binası düşmən əlinə keçmiş, qarət edilmiş, dağıdılmışdı. Maddi vəziyyəti ağır olduğundan minlərlə müəllim təhsil sistemini tərk etmişdi. Ulu öndər Heydər Əliyev təhsildə yaranmış problemləri həll etmək üçün özünəməxsus uzaqgörənliklə qısa müddətdə məcburi köçkünlərin kompakt məskunlaşdığı ərazilərdə məktəblərin qurulması üçün göstəriş verdi. Beləliklə, əhalinin yaşadığı yerlərdən asılı olaraq, çadırlarda, vaqonlarda, uşaq bağçalarında, yataqxanalarda, sanatoriyalarda və s.-də məcburi köçkün məktəbləri yaradıldı. Bu həm şagirdlərin təhsildən uzaq düşməsinin, həm pedaqoji kadr itkisinin qarşısını aldı, həm də köçkün müəllimlərin işlə təmin olunmasına şərait yaratdı.

Heydər Əliyevin zamanında verilmiş qətiyyətli göstərişlərinin nəticəsi olaraq təhsil müəssisələrinin fəaliyyətində yaranmış nöqsanların aradan qaldırılması üçün tədbirlər görüldü, planlı islahatların əsası qoyuldu. Təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırıldı, 200 yeni məktəb binası tikilərək istifadəyə verildi, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil olundu. Məhz Ulu öndərin göstərişi ilə respublikamızda milli təhsil konsepsiyası həyata keçirilməyə başlandı.

1998-ci il martın 30-da Prezident Heydər Əliyevin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu. Dünya Bankı, milli və xarici ekspertlərin köməyi ilə Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və Prezident tərəfindən 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirildi. Burada təhsilin idarə edilməsində yeni prinsiplərin bərqərar olunması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı şəkildə təkmilləşdirilməsi nəzərdə tutulurdu. Prezident Heydər

Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman verdi. 2001-ci ildə respublikada 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi (bax:Dövlət Statistika Komitəsinin "Azərbaycanda təhsil, elm və mədəniyyət- 20222 rəsmi-statistik məcmuə). Bu fərman və sərəncamlar dolayısı ilə qaçqınların və məcburi köçkünlərin də təhsilinə müsbət təsir edirdi. Ümumən, deyə bilərik ki, qaçqın və məcburi köçkünlərin sosial problemləri və təhsili məsələləri ölkə başçısının fəaliyyətinin əsas prioritet istiqamətlərindən idi. Bu məsələ Heydər Əliyevi daim narahat edirdi. Təsadüfi deyil ki, Umummilli lider dəfələrlə çadır şəhərciklərinə səfər etmiş, qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti ilə, təhsil məsələləri ilə şəxsən yaxından tanış olmuşdu.

1996-cı il aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident sarayında Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşü məcburi köçkünlərin probleminə göstərilən diqqətin bariz nümunəsi idi. Görüşdəki giriş nitqində Heydər Əliyev söyləmişdir: "Kəlbəcərin işğalından üç il keçir. İnsanlar adətən bayram günlərini, müsbət hadisələri qeyd etmək üçün görüşürlər, eyni zamanda milli ənənələrimizə görə tariximizdə olan bəzi faciəvi halların da ildönümünü, yaxud həmin günləri qeyd etmək üçün görüşürlər. Ona görə bizim bu görüşümüz də birinci növbədə, Kəlbəcər rayonu sakinlərinin vəziyyəti ilə mənim şəxsən tanış olmağım məqsədi daşıyır. Siz üç ildir ki, yerinizdən-yurdunuzdan olmusunuz, didərgin düşmüsünüz. Bu günü xatırlamaq lazımdır. Bu görüş həm də bu faciədən nəticə çıxarıb işğal olunmuş torpaqlarımızdan işğalçı qüvvələrin çıxarılması, torpaqlarımızın azad olunması uğrunda mübarizəmizi daha da gücləndirmək üçün, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək üçün fikir mübadiləsi aparmaq məqsədi daşıyır."

1998-ci il oktyabrın 4-də isə Heydər Əliyev Sabirabad, Qalağayın çadır şəhərciyində, Saatlı, Molday çadır şəhərciyində, İmişli, Bəhrəmtəpə fin evi qəsəbəsində, Biləsuvar çadır şəhərciyində məcburi köçkünlərlə görüşərək, onlarla bir süfrədə əyləşərək səmimi şəraitdə problemlərini dinləmiş, 19 mart 1999-cu ildə Biləsuvar rayonu ərazisindəki çadır düşərgəsində iki "Qarabağ" əlilinin toy məclisində iştirak etmişdir. Bu görüşlər məcburi köçkünlərin yaddaşında ən gözəl günlərdən biritək bu gün də qalmaqdadır. Məlumdur ki, qaçqın və məcburi köçkünlər ölkənin, demək olar ki, əksər bölgələrində məskunlaşmışlar. Bu cür məskunlaşma onların idarə edilməsində də problemlər yaradırdı. Buna baxmayaraq, Heydər Əliyev problemlərin həlli üçün lazımi tədbirlər həyata keçirir, həssas qrupa aid bu əhalidən qayğısını əsirgəmirdi. Müdrik dövlət başçısı qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi üçün Dövlət Proqramları, sərəncam və fərmanlar imzalamışdır. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların məskunlaşma səviyyəsinin yaxşılaşdırılması məqsədilə Heydər Əliyevin sədrliyi ilə 1998-ci il iyunun 27-də ümumrespublika müşavirəsi keçirilmişdir. Ulu öndər çıxışında: "İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir" - demişdir. Və elə həmin il Biləsuvar rayonu ərazisindəki çadır düşərgələrinə səfər edərək qaçqın və məcburi köçkünlərin yaşayışı və təhsili məsələləri ilə də maraqlanmışdır. Məcburi köçkünlərin sosial problemlərinin həlli, onların təhsilinin və həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən əməli işlərə, çadır düşərgələrinin ləğvinə başlanılmışdı.

2002-ci il sentyabr ayının 13-də Ulu öndərin iştirakı ilə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Ermənistan Respublikasından olan qaçqınlar, həmçinin Xocalıdan olan məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə məktəb və uşaq bağçası da istifadəyə verilmişdi.

Xüsusi ilə qeyd edək ki, hakimiyyətdə olduğu zamanda Heydər Əliyev beynəlxalq səviyyədə keçirilən çoxsaylı tədbirlərdə iştirak etməklə yanaşı, əraziləri işğal olunmuş rayonların

ISSN
3023-5480

ictimaiyyət nümayəndələri, qaçqın və məcburi köçkünlərlə 20-dən çox görüş keçirmişdir. "Bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir" - (8) deyən Ulu öndər məcburi köçkünlərin probleminə toxunaraq həmin insanların ağrılarını dərindən hiss etdiyini ifadə etmişdi.

1998-ci ildə "Azərbaycan Respublikasının vətəndaşları haqqında", 1999-cu ildə "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlar imzalayan Ümummilli liderin göstərişi ilə dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqının, eləcə də kommunal və digər xidmətlərin ödənişindən azad edildilər. [6,115] Məcburi köçkünlərin peşəyə yiyələnmələri, işlə təmin olunmaları üçün ölkədə bir sıra layihələr həyata keçirildi. Ali məktəblərə qəbulda yüksək bal toplayanlar arasında artıq məcburi köçkünlər də vardır ki, bu da sevindirici idi. Artıq respublikada qaçqın və məcburi köçkünlərin təhsil alması üçün münasib imkanlars yaradılmış, çadır şəhərciklərində, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı kompakt yerlərdə yüzlərlə yığma sinif otağı quraşdırılmış, şagirdlər dərs ləvazimatı ilə təmin olunmuşdular.

Heydər Əliyev 26 sentyabr 1998-ci il Azərbaycan müəllimlərinin 1-ci qurultayındakı nitqində məcburi köçkün uşaqların ağır şəraitə baxmayaraq təhsilə həvəslərini və orada dərs deyən müəllimlərin cəfakeşliyini yüksək qiymətləndirmişdir: "Bizim hamımızın ən əsas qayğısı işğal olunmuş torpaqlardan didərgin düşmüş soydaşlarımızın, vətəndaşlarımızın vəziyyəti və onların, xüsusən çadırlarda və qeyri-münasib binalarda yaşayan ailələrin uşaqlarının təhsili məsələsidir. Mən bəzən görürəm, televiziya ilə göstərirlər ki, çadır şəhərciklərində müəllimlər uşaqlara çadır altında dərs keçirlər. Bizim dövrümüzdə bunu görmək bir tərəfdən ağırdır, çünki indi, XX əsrin sonunda bir çox vətəndaşlarımız çadırda yaşayır və uşaqlar da çadırlarda təhsil alırlar. Amma ikinci tərəfdən də, bu, məndə böyük qürur hissi doğurur ki, Azərbaycan vətəndaşları, azərbaycanlılar təhsilə nə qədər bağlıdırlar, övladlarını nə qədər təhsilləndirmək, maarifləndirmək istəyirlər, hətta çadırda, ağır şəraitdə yaşayaraq uşaqlarını məktəbə oxumağa göndərirlər. Xüsusən çadır şəhərciklərindəki məktəblərdə dərs verən müəllimlərin fəaliyyətini qiymətləndirirəm. O müəllimlər ki, çətin vəziyyətdə, bəzən qarın altında, palçığın içində, ağır vəziyyətdə, çadırda dərs verir, özünün şərəfli müəllimlik vəzifəsini yerinə yetirir, köçkün uşaqlarını tərbiyələndirir və onlara təhsil verirlər - bunlar xüsusi hörmət və ehtirama layiqdirlər." [2 ]



2002-ci il oktyabrın 4-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Fərman verdi. Fərmandan irəli gələn vəzifələr əsasında 2003-2007-ci illərdə məktəb tikintisi, təmiri, təhsil ocaqlarının müasir tədris avadanlığı ilə təchizi üçün konkret tədbirlər görülməyə başlandı ki, bu məcburi köçkün məktəblərinin də maddi-texniki bazasının möhkəmlənməsinə öz təsirini göstərdi. Bunu faktlarla da göstərə bilərik. Belə ki, məhz dövlət başçısı Heydər Əliyevin göstərişi ilə 1993-2003-cü illərdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəldilən vəsaitin həcmi 90 dəfə, yemək xərcləri üçün müavinət 60 dəfə, kommunal xidmət xərcləri 120 dəfə artırılmışdı. [6,115]

Dövlət başçısının bu məsələlərlə bağlı fərmanları dediklərimizi təsdiq edir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" 2001-ci il 7 sentyabr, "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" 2002-ci il 13 may tarixli

ISSN
3023-5480

fərmanlarına uyğun olaraq Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi. [4,10] Yeni qəsəbələrdə müasir avadanlıqlarla təhciz olunmuş orta məktəb və uşaq bağçaları da tikilmiş, təhsil şəraiti yaxşılaşdırılmışdır.

Mənfur qonşularımızın torpaqlarımızı işğal etməsi nəticəsində Azərbaycanda yaranmış humanitar böhrandan sonra ölkəyə gələn donor və humanitar təşkilatların əksəriyyətinin qalıb burada uzunmüddət fəaliyyət göstərmələri bilavasitə Ulu öndərin dünya ölkələrindəki yüksək nüfuzu hesabına mümkün olmuşdur. Heydər Əliyev tərəfindən əsası qoyulan yeni neft strategiyası öz bəhrəsini verəndən sonra digər sahələrdə olduğu kimi, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə də bağlı geniş tədbirlərin həyata keçirilməsinə başlanıldı. Ulu öndər Heydər Əliyevin 2001-ci il 22 avqust, 2001-ci il 7 sentyabr və 2002-ci il 13 may tarixli fərmanlarına əsasən Dövlət Neft Fondundan ayrılmış 359 milyard manat vəsait hesabına ümumi sahəsi 392 min kvadratmetr olan 6410 fərdi yaşayış evi ilə yanaşı, 3150 yerlik 18 məktəb, 16 tibb məntəqəsi, 18 uşaq bağçası, 75 çarpayılıq xəstəxana [6, 115] və digər həyat üçün vacib olan sosial obyektlər tikilib istifadəyə verildi.

Bu layihələrin həyata keçirilməsi bilavasitə qaçqın və məcburi köçkünlərin təhsili məsələsinə də müsbət mənada təsirini göstərirdi. Köçkün məktəblərinin şəraiti daha da yaxşılaşır, texniki bazaları güclənir, şagirdlərin dərsliklərlə və məktəbli ləvazimatları ilə vaxtlı-vaxtında təmin olunması onların təhsildən yayınmasının qarşısını alırdı. Bunların nəticəsində köçkün məktəblərinin məzunları arasında yüksək balla ali məktəblərə daxil olan abituriyentlərin sayı daha da artırdı.

Beləliklə, erməni işğalı nəticəsində ciddi problemlərlə üzləşən, bir çox hüquqları, həmçinin təhsil hüququ əllərindən alınan qaçqın və məcburi köçkünlər Heydər Əliyevin gərgin səyləri və himayəsi sayəsində çətinlikləri geridə qoyub, problemlərin öhdəsindən gəldilər. Uşaq və yeniyetmələrin təhsildən uzaq düşmələrinin, pedaqoji kadr itkisinin qarşısı alındı. "Ümumiyyətlə, bu gün Azərbaycan təhsilinin tarixini, təhsildə baş verən dəyişikliklər və yüksəlişləri nəzərdən keçirərkən. cəsarətlə deyə bilərik ki, Azərbaycanda təhsilin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır." [7,292] Ümummilli liderin rəhbərliyi dövründə ölkəmiz üçün yüksəkixtisaslı milli kadrların, o cümlədən, hərbiçi kadrların yetişdirilməsi bir hədəfə çevrilmişdir. Dövlət başçısının hərbi vətənpərvərlik tərbiyəsinə diqqəti, hərbi sahənin inkişafı istiqamətində gördüyü işlərin nəticəsi olaraq hərbi məktəbdə oxuyan qaçqın və məcburi köçkün uşaqların sayı artdı. Təsadüfi deyil ki, aprel döyüşlərində və 44 günlük Vətən müharibəsində torpaqların azad edilməsində iştirak edənlərin müəyyən hissəsi məhz məcburi köçkün zabitlər, əsgərlər idi.



Qaçqın və məcburi köçkünlərin sosial və təhsil problemlərini həll etməklə yanaşı Ulu öndərin əsas milli qayəsi, həm də işğal altındakı torpaqlarımızın azad edilməsi, köçkünlük həyatı yaşayan əhalinin öz yurdlarına qaytarılması idi. Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayarkən andiçmə mərasimindəki çıxışı zamanı Heydər Əliyev bu barədə demişdir: "Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı, bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır..."

Heydər Əliyevin bu amalı onun uğurlu davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirildi. Məhz Ali Baş Komandanımızın siyasi qüdrəti və güclü sərkərdəlik bacarığı sayəsində Azərbaycan Ordusu 30 illik işğala son qoydu. 44 gün ərzində bütün Ermənistan ordusu məhv edildi. İşğal altında olan torpaqlarımızın əsas hissəsi azad olundu.

ISSN
3023-5480

Xüsusilə qeyd etmək lazımdır ki, Ulu öndərin davamçısı Azərbaycan Respublikasının Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərlə bağlı dövlət siyasətini daha da genişləndirərək ardıcıl davam etdirir. Qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə Birinci vitse-prezident xanım Mehriban Əliyeva da xüsusi qayğı göstərir, bu sahədə mühüm işlər görür. Onun rəhbərlik etdiyi "Heydər Əliyev Fondu" vətəndaşların, o cümlədən məcburi köçkünlərin müraciətlərinə həssaslıqla yanaşır, onların təhsili məsələlərinə yardımını əsirgəmir.

Dövlət başçı İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində qaçqın və məcburi köçkün probleminin dayanıqlı həllinə nail olunub, Ümummilli liderin uzaqgörən siyasəti bizi Qarabağa qovuşdurub. Ərazilərimizin böyük hissəsi işğaldan azad edilib, artıq qaçqın və məcburi köçkünlərimizin ata-baba yurdlarına könüllü, təhlükəsiz və ləyaqətli qayıdışı üçün imkan yaranıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizin abadlaşdırılması, müasir yaşayış məskənlərinə çevrilməsi üçün zəruri tədbirlər görülür, irimiqyaslı layihələr həyata keçirilir, xüsusən müasir tipli, yeni texniki avadanlıqlarla təhciz olunmuş məktəblər tikilib, yurd yerlərinə qayıdan əhalinin ixtiyarına verilir. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Füzuli rayonuna və Laçın rayonuna keçmiş məcburi köçkünlər geri dönüb.

Qürurverici və tarixi bir hadisədir ki, artıq 2022-ci ilin 15 sentyabrında Zəngilan rayonu Ağalı kənd tam orta məktəbinin açılışı oldu. 29 illik fasilədən sonra Azərbaycanın işğaldan azad olunan bölgəsində ilk zəng çalındı. Prezident İlham Əliyevin səyi nəticəsində tezliklə bu zənglərin sayı artacaq.

Bu gün qürurlanırıq ki, Heydər Əliyevin müəyyənləşdirdiyi qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıdışı siyasətini gerçəkləşdirən Prezident İlham Əliyev və onun ideyalarını yaşadan Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad olunan ərazilərdə aparılan quruculuq işlərinə töhfə verir, həmçinin "Heydər Əliyev fondu" tərəfindən Qarabağ və Şərqi Zəngəzurda dini, tarixi, mədəni irsimizin, o cümlədən təhsil müəssisələrinin bərpası istiqamətində əhəmiyyətli layihələr həyata keçirilir. Bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması, o cümlədən öz doğma yurdlarında müasir texniki avadanlıqla təhciz olunmuş məktəblərdə təhsil almaları, illərdir yurd-yuva həsrəti ilə yaşayan insanlarımızın yurdlarına qovuşması üçün mühüm işlər görülür.



Bu gün hər bir məcburi köçkün qurur və iftixar hissi ilə qeyd edir ki, ölkəmiz bu qalibiyyətə Ümumilli liderin ideyalarına sədaqət və onun arzularının gerçəkləşməsi yolunda çəkilən zəhmət sayəsində nail olmuşdur. Tarixi torpaqlarımıza qayıdış onun uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurlu davamının nəticəsidir. Xalqımız əmindir ki, müstəqil Azərbaycan respublikası Ulu öndər Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyuk uğurlar qazanacaqdır.

ISSN
3023-5480

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan müəllimi qəzeti. 2010, 10 dekabr, s.4.

2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan müəllimlərinin I qurultayında nitqi - 26 sentyabr 1998-ci il.lib.aliyev-heritage.org/az.

3. Azərbaycan ali təhsil müəssisələrindı idarəçilik: təhlillər və islahatlar. Nailə Nəbiyeva. Ali təhsil və cəmiyyət. Elmi-metodik jurnal, 3. 2012, s. 29.

4. Böyük qayıdışın təməllərini yaradan lider. Azərbaycan qəzeti. Yasəmən Musayeva. 10 may 2022-ci il, s.10.

5. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı. İsa Alıyev. Xalq qəzeti - 2009, 12 dekabr. s. 6.

6. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Kömitəsi. Ermənistan-Azərbaycan münaqişəsi. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.s.120

7. Mahirə Hüseynova. Missiya.Bakı, 2019. s., 292.

8. Prezident İlham Əliyev: Azərbaycan bundan sonra da bütün səylərini torpaqlarının erməni işğalından azad olunmasına, həmin ərazilərdə əhalisinin məskunlaşmasına və vətəndaşlarının təhlükəsizliyinin tıminınə yönəldəcək. Əliqismət Bədəlov. Xalq qəzeti. 2017, 31 yanvar.

9. Uğurlu təhsil islahatlarının banisi. Ceyhun Bayramov. Azərbaycan qəzeti. 2019, 12 iyul.